Ümumi daxili məhsul dedikdə ölkə daxilində il ərzində istehsal edilmiş məhsul, iş və xidmətlərin dəyəri başa düşülür. Ən mühüm makroiqtisadi göstəricidir. Ümumi daxili məhsulun hesablanmasının üç metodu vardır.

1. İstehsal metodu ilə ümumi daxili məhsul aşağıdakı kimi hesablanır.

$$GDP = UB - AIX$$

Burada $GDP-$ ümumi daxili məhsul;

$AIX$ – aralıq istehlak xərcləri;

$UB$ - ümumi buraxılışın həcmidir.

2. Son istifadə (istehlak) metodu ilə ümumi daxili məhsul aşağıdakı kimi hesablanır.

$$GDP = C + G + I + NX$$

Burada $C-$ şəxsi istehlak; $G-$ dövlət istehlakı; $I$ – investisiya; $NX$ –xalis ixracdır və aşağıdakı kimi hesablanır $NX = \dot{I}X - \dot{I}M$ $IM-$ idxal; $IX-$ ixrac;

3. Bölüşdürmə və ya gəlirlər metodu ilə ümumi daxili məhsul aşağıdakı kimi hesablanır.

$$GDP = W + SS + A + DQ + T - U$$

Burada $W$ –əmək haqqı; $SS-$ sosial sığortaya ayırmalar; $A-$ amortizasiya; $DQ-$ ümumi qarışıq gəlirlər; $T$ –istehsala və idxala vergilər; $U-$ istehsala və idxala subsidiya;

Əmək məhsuldarlığı nisbi kəmiyyətdir və onun səviyyəsi aşağıdakı göstəricilər sistemi ilə müəyyən edilir:

1. Natural ifadədə müəyyən növ məhsul istehsalı üzrə əməyin məhsuldarlığı. Bu göstəricinin səviyyəsi vaxt vahidi ərzində istehsal edilmiş məhsulun həcmini göstərir və aşağıdakı kimi hesablanır: $MH = TKM / CIS$